2019-cu il dekabrın 23-də keçirilmiş bələdiyyə seçkilərində
3 yanvar 2020-ci il tarixli 55 saylı müraciətə baxılmasına dair
Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının

# Q Ə R A R I

2019-cu il dekabrın 23-də keçirilmiş bələdiyyə seçkilərində 61 saylı Neftçala seçki dairəsindən Xol Qarabucaq bələdiyyəsi üzrə qeydə alınmış namizəd Bəndaliyev Zabil Adil oğlu və digərləri 3 yanvar 2020-ci ildə Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına (Mərkəzi Seçki Komissiyası) yazılı müraciət edərək həmin seçki dairəsinin 31 dekabr 2019-cu il tarixli 41/112 saylı qərarını mübahisələndirmiş, hüquqlarının pozulduğunu iddia etmiş, bununla bağlı müvafiq tədbirlərin görülməsini xahiş etmişlər.

Müraciət Azərbaycan Respublikası Seçki Məcəlləsinin (Seçki Məcəlləsi) 112-ci və 112-1-ci maddələrinə və "Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına və dairə seçki komissiyalarına seçki hüquqlarının pozulması ilə əlaqədar şikayət və müraciətlərin verilməsi və onlara baxılması qaydaları haqqında Təlimat"ın tələblərinə uyğun olaraq Mərkəzi Seçki Komissiyasının nəzdində ekspert qrupunun üzvü tərəfindən araşdırılmış, bu barədə müvafiq rəy verilmiş və Mərkəzi Seçki Komissiyasının iclasında baxılmışdır.

Şikayətçilər öz müraciətində qeyd etmişlər ki, dairə seçki komissiyası onları dinləmədən və heç bir məlumat vermədən şikayəti əsassız saymışdır.

Araşdırma prosesində müraciət etmiş şikayətçilərdən biri olan Əmrahov Şirin Allahbaxış oğlu ilə əlaqə saxlanılmış, ona hər hansı sənəd və materiallar təqdim etmək, araşdırma və iclasda iştirak etmək və digər hüquqlarının olması izah edilmiş, onun iclasda iştirakı təmin olunmuşdur.

61 saylı Neftçala seçki seçki dairəsinin seçki komissiyasından Bəndaliyev Zabil Adil oğlu və digərlərinin müraciətinin araşdırılması ilə bağlı təqdim olunmuş sənədlərdən müəyyən edilmişdir ki, dairə seçki komissiyasının nəzdində yaradılmış ekspert qrupunun üzvü tərəfindən seçki dairəsinin 35 saylı seçki məntəqəsində səsvermə günü müşahidə aparmış qeydə alınmış namizədlərdən, müşahidəçilərdən izahatlar alınmış, izahatlarda 35 saylı seçki məntəqəsində səsvermə və səslərin sayılması prosesinin özləri və müşahidəçiləri vasitəsilə müşahidə edilmiş, müşahidə zamanı səsvermənin nəticələrinə təsir edə biləcək qanun pozuntularına rast gəlinmədiyi bildirilmişdir. Eyni məsələ ilə bağlı məntəqədə səsverməni və səslərin hesablanmasını müşahidə etmiş qeydə alınmış namizədlərdən, müşahidə aparmış müşahidəçilərdən, ümumilikdə 20 nəfərdən alınmış izahatlarla müraciətdə göstərilən hallar öz təsdiqini tapmamış, bu səbəbdən müraciət təmin edilməmişdir.

Araşdırma zamanı səsvermə günü hər hansı bir qanun pozuntusuna yol verilmədiyi səsvermə prosesini, səslərin hesablanmasını müşahidə etmiş müşahidəçilər Ə.A.Cəfərovun, H.Ə.Əliyevin, Ş.N.Kərimovun, Ə.E.Əhmədovun, S.Ə.Həsənovun, həmçinin bələdiyyə üzvlüyünə seçilməmiş digər namizədlər E.F.Bəşirovun, K.M.Kərimovun, E.Ə.Heydərovun, A.B.Həşimovun, S.Q.Məlikovun, C.A.Ağayevin, seçilmiş namizədlər B.H.Həşimovun, B.G.Bəşirovun, 35 saylı məntəqə seçki komissiyasının sədri S.H.Bayramovun, komissiyanın katibləri İ.R.Quliyevin, N.R.Xankişiyevin, komissiyanın üzvləri A.S.Abseynovun, Q.M.Ağayevin və V.Y.Əzizovun izahatları ilə təsdiq olunur.

Qeyd edilməlidir ki, dairə seçki komissiyası tərəfindən ərizəçilərin komissiyanın iclasında iştirakı təmin edilmiş, lakin iclas başa çatmamış onlar narazılıqlarını bildirərək iclası yarımçıq tərk etmişlər.

Araşdırma nəticəsində 61 saylı Neftçala seçki dairəsi dairə seçki komissiyasının 31 dekabr 2019-cu il tarixli 41/112 saylı qərarının seçki qanunvericiliyinin tələblərinə uyğun qəbul edildiyi müəyyən olunmuşdur.

Yuxarıda göstərilənləri əsas götürərək, Mərkəzi Seçki Komissiyası Seçki Məcəlləsinin 19.4-cü, 28.2-ci, 112-ci, 112-1-ci maddələrinə və "Azərbaycan

Respublikasının Mərkəzi Seçki Komissiyasına və dairə seçki komissiyalarına seçki hüquqlarının pozulması ilə əlaqədar şikayət və müraciətlərin verilməsi və onlara baxılması qaydaları haqqında Təlimat"ın 1, 2, 4, 6, 7 və 8-ci hissələrinə əsasən **q ə r a r a  a l ı r :**

1. 2019-cu il dekabrın 23-də keçirilmiş bələdiyyə seçkilərində 61 saylı Neftçala seçki dairəsindən Xol Qarabucaq bələdiyyəsi üzrə qeydə alınmış namizəd Bəndaliyev Zabil Adil oğlu və digərlərinin 3 yanvar 2020-ci il tarixli 55 saylı müraciəti əsassız olduğundan təmin edilməsin, dairə seçki komissiyasının 31 dekabr 2019-cu il tarixli 41/112 saylı qərarı dəyişdirilmədən saxlanılsın.

2. Bu Qərar dərc edildiyi gündən qüvvəyə minir.

| | |
|---|---|
| Sədr | Məzahir Pənahov |
| Katib | Arifə Muxtarova |
| Katib | Mikayıl Rəhimov |